N.F.MƏMMƏDOVA
e-mail: mammadovanahida@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.043

ALMAN DİLİNİN LEKSİK QATINDA "QLOBALLAŞMA" KOMPONENTLİ MÜRƏKKƏB SÖZLƏRİN LİNQVOKOQNİTİV XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Müəllif bu məqalədə qloballaşma prosesinin alman dilinə təsirini araşdırır, qloballaşmanın alman dilinin leksik sistemində əks olunmasına xüsusi diqqət yetirir. Müəllif qeyd edir ki, qloballaşma prosesi fərdi deyil, insan fəaliyyətinin bütün aspektlərinə təsir göstərir. Müəllif ayrıca nəzərdən keçirilən tematik qrupun sözlərin praqmatik və söz yaradıcı xüsusiyyətlərini də nəzərə alır. Məqalədə müəllif qloballaşmanın sosial həyatın bütün sahələrinin beynəlmiləlləşməsinin, informasiya texnologiyaları inqilabının ən son nailiyyətlərinə əsaslanan bütöv dünyanın formalaşmasının yeni mərhələsi olduğunu vurğulayır.*

Açar sözlər: *dil, qloballaşma, anqlo-amerikanizmlər; dil kontaktları, sosiolinqvistik, kommunikasiya; semantik yeniləşmələr*

Leksik qat "dil orqanizminin" ən çevik və dəyişiklərə açıq layıdır. O, həm dilin əsas səciyyəvi xüsusiyyətlərini, həm də dil daşıyıcısının hər bir sözdə təfəkkür tərzini əks etdirir. Dilin leksik tərkib istənilən dilin ən vacib elementlərindən biridir. Onun zənginləşməsi hər bir dildə müxtəlif nisbətlərdə fərqli yollarla baş verir ki, bu da dilin qrammatika, üslub, sintaksis kimi digər əlaqəli sahələrinə böyük təsir göstərir.

XX əsrin sonlarından başlayan qloballaşma sivil inkişafın əsas amilinə çevrilməklə yanaşı, həm də fənlərarası tədqiqatların obyektinə də çevrilmişdir. Lakin dilçilikdə qloballaşmanın dillərə təsirinin əsaslı tədqiqinə XXI əsrin ilk illərindən başlanılmışdır. Qloballaşma və dilin qarşılıqlı təsiri bir çox məsələləri əhatə edir, məsələn, bilinqvizm, qloballaşma şəraitində sosial və mədəniyyət münasibətlərinin dil vasitəsil ilə təsviri, etnodil və etno-mədəni problemlərin öyrənilməsi və s.

İqtisadi, siyasi və mədəni sferalarda qloballaşma prosesi dil səviyyəsində qlobal əhəmiyyətli dillərdə fonetik (qrafik) və semantik (tam və ya qismən) üst-üstə düşən sözlər adlandırılan qlobalizmlərin yaranmasına səbəb olmuşdur. XXI əsrdə ingilis dili qlobalizmlərin əsas mənbəyinə çevrilmişdir, onda yaranan yeni sözlər və terminlər sürətlə bir çox dillərin leksik sisteminə nüfuz edir. Qloballaşma yeni problem sahəsinin ən mühüm kateqoriyası olsa da, onun linqvistik əhəmiyyəti dilçilər tərəfindən nisbətən yaxınlarda etiraf edilmişdir: Məsələn, N. Coupland [1] "dilçilikdə qloballaşma ilə yalnız XXI əsrin ilk illərində – digər humanitar elmlərdən daha gec maraqlanmağa başlanıldığını" yazır. İnkişaf etməkdə olan qlobal dünyanı dərk etmək üçün ilk sistemli cəhd 2003-cü ildə "Sosiolinqvistika və qloballaşma" mövzusuna həsr olunmuş "Sosiolinqvistika" jurnalının xüsusi buraxılışı olmuşdur. Müzakirə olunan məsələlərin açıq-aşkar diqqətdən kənarda qalmasının səbəblərindən biri bilinqvizm və xüsusilə də çoxdillilik problemlərinə diqqətin uzun müddət cəmlənməsi faktı idi [3; 4, s. 69].

Qloballaşma dilin də implisit şəkildə daxil olduğu yeni dəyərlər sistemi yaradır.

B.Constona görə, "qloballaşma prosesində sırf dil formaları və üslubları yeni ideoloji dəyər və yük qazanaraq resemiotikləşir" [4, s. 387]. Qloballaşma birləşməyə doğru meyil yaradır və ingilis dilinin dünya dili kimi inkişafına töhfə verir. Amma eyni zamanda qloballaşma ilə əlaqədar əks meyil: linqvistik özünütəsdiqdə ifadə olunan və dili işarə və ya simvol kimi istifadə edən regionallaşma prosesi yaranır. Qlobal proseslərin milli dillərə təsiri, ilk növbədə,

dünyada ingilis dilinin ekspansiyası ilə əlaqədar nəzərdən keçirilir ki, bu da ABŞ-ın siyasi və iqtisadi sahələrdə üstünlüyü ilə bağlıdır. F.Y.Veysəlli ingilis dilinin dünyadakı mövqeyini belə şərh edir: "Qloballaşma şəraitində ingilis dilinin hökmranlığı ABŞ və Böyük Britaniyanın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxardır ki, bununla da başqa xalqların dillərinə və mədəniyyətlərinə öldürücü zərbə dəymiş olur" [5]. "Dünya dili" arzusu əsrlər öncə də qüvvədə olmuş və müxtəlif dövrlərdə ayrı-ayrı dilllər bu statusa iddialı olmuşdur. "Dünya dili" statusuna iddialı milli dillərin sayı artsa da, onlardan heç biri hakim mövqeyə keçə bilməmişdir [6].

L.A.Nefedovanın da qeyd etdiyi kimi, "alman dili Avropa dilləri arasında ingilis dilinin təsirinə ən çox məruz qalmış dillərdəndir və anqlisizmlərin sayca üstünlük təşkil etməsi ilə səciyyələnən dildir" [7, s. 27]. İngilis dilindəki sözlərə alman dilinin həssalığı, ilk növbədə, bu dillərin qohumluğu, digər tərəfdən, alman dilinin daşıyıcılarının tolerantlığı ilə izah etmək olar. L.A.Nefedovanın qənaətinə görə, "almanlar gündəlik danışıqlarında da ingilis dilində olan sözlərdən geniş istifadə edirlər və bu da dilçilərə özünəməxsusluğu ilə seçilən yeni alman dilindən (Neudeutsch, Denglisch) bəhs etməyə imkan verir" [7, s. 39]. İngilis dilinin ayrı-ayrı dillərə ekspansiyasında olan fərqi araşdıran V.M.Alpatov alman dilinin amerikanizmlərə həssaslığı məsələsinə münasibətdə yazır ki, "əlbəttə, ingilis dilinin ekspansiyasına münasibətlər tam fərqlidir. Kimlərsə qloballaşmaya qoşulmağı prestij sayır, digərləri isə qloballaşmada milli adət-ənənələrə, milli dillərə təhlükəni (sözsüz ki, bu məsələdə onlar tam haqlıdır) görür. Bu fərqlərin kökündə dövlətin dil siyasəti və başqa-başqa ölkələrin istimai münasibətlər dayanır. Avropada ingilis dili və amerikan mədəniyyətinin qarşısının alınmasına yönəlmiş ən güclü müqavimət Fransada müşahidə olunur, halbuki Almaniyada amerikanlaşma bütün sahələrdə, xüsusən də dil müstəvisində daha intensivdir" [6]. Müəllifə görə, bu vəziyyəti həm də "Almaniyanın hələ də nasizmə görə özünün günahkar hesab etməsidir, çünki milli mədəniyyət və alman dilinin dünyəvi əhəmiyyətinə dair ideyalar olduqca iddialı görünür və bu da amerikanlaşmanın yayılmasına gətirib çıxarır" [6].

İngilis dilinə məxsus sözlər alman dilinin bütün işlək sahələrinə nüfuz edir: bu proses hər şeydən əvvəl, informatika, iqtisadiyyat, maliyyə, idman, sosial sahələr və gündəlik ünsiyyət sahələrini əhatə edir. Bu gün almandilli elə bir diskursiv sahə təsəvvür etmək olmaz ki, orada başqa, xüsusən də ingilis dilindən alınmalardan istifadə edilməsin. İngilis dilinin ekspansiyası və hökmranlıq etməsi qloballaşmanın dil proseslərinə təsirinin yalnız bir tərəfidir. Digər aspekt isə onunla bağlıdır ki, dilin leksik qatı qloballaşma ilə bağlı yeni-yeni leksik vahidlərlə "zənginləşir". Bu məqalədə alman dilində "Globalisierung" tematik qrupuna daxil olan leksik vahidləri tədqiq etməyə çalışacağıq. "Globalisierung" komponentli və ya mənaca yaxın leksik vahidlərin sistemləşdirilməsi təkcə bizim müasir alman dili haqqında təsəvvürlərimizin sərhədlərini müəyyənləşdirməyə deyil, həm dəqloballaşma konseptində alman dil mənzərəsinin yaratmağa imkan verəcəkdir.

Alman dilindəki "Globalisierung" sözünün Duden lüğətində iki mənası qeyd olunmuşdur: 1) "das Globalisieren", "das Globalisiertwerden"; 2) "weltweite Verflechtung in den Bereichen Wirtschaft", "Politik", "Kultur" [8]. Bu sözün semantikasında iki aspekt təmsil olunmuşdur: a) təsiq prosesinin obyektə, nəticəyə yönəlikliyi (qloballaşmaya məruz qalmaq) b) prosesin özü (iqtisadiyyat, siyasət və mədəniyyətdə qloballaşmanın vüsət alması). Alman dilində "Globalisierung" sözünün tematik sahəsi 50-dən yuxarı leksemi əhatə edir. Bu leksik vahidlərin tematik qruplar üzrə paylanması qloballaşma hadisəsinin çoxqütblülüyündən xəbər verir.

Birinci qrupa mənasında qloballaşmanın mürəkkəb xarakteri ümumi şəkildə əks olunduğu sözlər daxildir: "Globalisierung", "Globalisieren", "Globalisiertwerden", "Globalisierungsbegriff", "Globalisierungsbestrebungen", "Globalisierungsfolgen", "Globalisierungsinstrument", "Globalisierungseffekte", "Globalisie rungsmodell", "Globalisierungspolitik", "Globalisierungsprozess", "globalisieren";

İkinci qrupa isə qloballaşma hadisəsinin qeyri-müəyyənliyini, ziddiyyətli xarakterini və qaçılmaz olduğunu əks etdirən sözlər daxildir: “Globalisierungsdrama”, “Globalisierungsdebatte”, “Globalisierungsdiskussion”, “Globalisierungsspiel”, “Globalisierungsdruck”, “Globalisierungsfalle”, “Globalisierungsprobleme”, “Globalisierungsfragen”, “Globalisierungswahn”, “Globalisierungswahnsinn”;

Üçüncü qrupa qloballaşmanın cəmiyyətin həyatının hansı sferaların daha çox sirayət etdiyi leksik vahidlər aiddir. Məsələn: “Finanzglobalisierung”, “Finanzglobalismus”, “Sportglobalisierung”, “Regio-Globalisierung”;

Dördüncü qrupa daxil olan sözlərin semantik qatında qloballaşmanı tənqid və qəbul etməyənlərin olduğunu əks etdirən leksik vahidlər daxildir. Məsələn: “Globalisierungsgegner”, “Globalisierungsgegnerin”, “Globalisierungskritiker”, “Globalisierungskritik”, “Globalisierungskritikerin”, “Globalisierungskrise”, “Globalisierungsprobleme”, “Globalisierungsskeptiker”, “antiglobalistisch”, “Antiglobalisten”, “Antiglobalisierungsbewegung”, “globalisierungskritisch”;

– Beşinci qrupa daxil olan leksik vahidlərin semantikasında qloballaşmanın tərəfdarları olduğunu əks olunur. Məsələn: “Globalisierungsgewinner”, “Globalisierungsgewinnerin”, “Globalisierungsfürwörter”, “Globalisierungsfond”.

Q.P.Kofanova müasir alman mediasının materialından istifadə edərək qloballaşmanın konseptual sahəsini təsvir etməyə çalışmışdır [9]. O, bu fenomeni müxtəlif diskurslarda amerikanizmləri tədqiq etmişdir. Müasirlik baxımından bu yanaşma maraqlı görünsə də, diskurs növlərinin ixtiyari seçiminə əsaslanaraq alman xalqına aid qloballaşma konsepsiyasının obyektiv təsvirini vermək bir qədər inandırıcı görünmür. Halbuki lüğətlərdə öz əksini tapmış dil sisteminə, yəni nəzərdən keçirilən tematik qrupun alman dilinin leksik vahidlərinə birbaşa müraciət etməklə dünyanın almandilli mənzərəsində qloballaşma anlayışının daha obyektiv mənzərəsini əks etdirə bilər.

Qloballaşma anlayışının xüsusiyyətlərini leksik vahidlərin semantikasının təhlili əsasında müəyyən edərkən biz N.N.Boldırevin müxtəlif tipli konseptual informasiyaların dildə sözlər, söz birləşmələri, cümlələrdə ifadə olunduğu fikrinə üstünlük vermişik [10]. Toplanmış dil korpusuna əsaslanaraq belə nəticəyə gələ bilərik ki, dünyanın alman dil mənzərəsində qloballaşması aşağıdakı aspektlərdə təmsil olunur:

− Müəyyən dövr üçün mürəkkəb struktura malik və dinamik səciyyəli proses bildirir: “Globalisierungsprozess, Globalisierungszeiten, Globalisierungszeitalter, Globalisierungsmodell, Globalisierungsschub, Globalisierungswelle, Globalisierungstrend, Globalisierungseffekte, Globalisiertwerden, Globalisieren”;

− Bu proses alman cəmiyyətində müəyyən tərəddüdlərə yol açır, həyəcan işarəsi kimi qəbul edilir və mübahisələrə səbəb olur. Məsələn: “Globalisierungsangst, Globalisierungsdebatte, Globalisierungsdiskussion, Globalisierungsfalle, Globalisierungsprobleme, Globalisierungszwängen, Globalisierungsschicksal, Globalisierungsdrama, Globalisierungsspiel, Globalisierungswahn”;

− Qloballaşma almandilli cəmiyyətin həyatının müxtəlif tərəflərini əhatə edir: maddi sahəsini: “Finanzglobalisierung, Finanzsystem, Gedbetrug, Währung), iqtisadiyyat və ticarət: Wirtschaft, Märkte, Freihandel); informativləşmə sahəsi: Digitalisierung; cəmiyyətdə sosial münasibətlər: Migration): idman: Sportglobalisierung”;

− Qloballaşma alman xalqı tərəfindən neqativ aspektdən qəbul edilir. Məsələn: “Globalisierungsgegner”, “Globalisierungsgegnerin”, “Globalisierungskritiker”, “Globalisierungskritik”, “Globalisierungskritikerin”, “Globalisierungskrise”, “Globalisierungsprobleme”, “Globalisierungsskeptiker”, “Globalisierungsverlierer”, “Globalisierungsverliererin”, “antiglobalistisch”, “Antiglobalisten”, “Antiglobalisierungsbewegung”, “globalisierungskritisch”;

− Alman cəmiyyətində qloballaşmanın müsbət hadisə kimi qiymətləndirilməsini əks etdirən leksik vahidlər. Məsələn: “Globalisierungsgewinner”, “Globalisierungsgewinnerin”,

"Globalisierungsfürwörter", "Globalisierungsfond" (alman dilində belə mahiyyətli sözlər hissolunacaq dərəcədə azlıq təşkil edir);

− Alman cəmiyyətində qloballaşmanın qarşısı alınan proses olduğunu əks etdirən leksik vahidlər. Məsələn: Entglobalisierung, Deglobalisierung (De-Globalisierung), Post-Globalisierung, entglobalisieren və s.

Alman cəmiyyətində qloballaşmaya olan münasibət dildə öz əksini tapmışdır ki, bu da "qloballaşma" konseptinin alman dili mənzərəsində praqmatik potensialının bütün incəliklərinə qədər təsvir etməyə imkan verir. Leksik vahidlərin əksəriyyəti neytral semantikalıdır. Amma "Globalisierung" sözünün birləşmələrində ilkin olaraq mənfi məna çaları yer alır. Nəzərdən keçirilən tematika kontekstində həm də "globalisierung" komponentinin /-druck/, /-zwänge/ komponentləri ilə birləşmələrdə mənfi konnotasiyalı sözlər kimi qəbul edilir. Alman dilində bu tematikaya daxil olan sözlərin əksəriyyəti "globalisierung" komponentinin dil daşıyıcılarının şüurunda "Globalısıerung" konseptini aktivləşdirdiyi mürəkkəb sözlərdir. Yaranmış mürəkkəb sözlərin ikinci komponenti qloballaşmanın ayrı-ayrı təsəvvürlərini formalaşdırır, lakin əlavə etmək istərdik ki, "globalisierung" komponentli bütün sözlərin təhlili almandilli dünya mənzərəsində müvafiq konseptin bütöv obrazını canlandırmağa imkan verir.

İşin elmi nəticəsi: "Globalisierung" komponentli və ya mənaca yaxın leksik vahidlərin sistemləşdirilməsi təkcə bizim müasir alman dili haqqında təsəvvürlərimizin sərhədlərini müəyyənləşdirməyə deyil, həm də qloballaşma konseptində alman dil mənzərəsinin yaratmağa imkan verəcəkdir.

İşin elmi yeniliyi: məqalədə alman dilində "Globalisierung" tematik qrupuna daxil olan leksik vahidləri tədqiq edilmişdir.

İşin tətbiqi əhəmiyyəti: qloballaşmanın təbii dillərin, o cümlədən alman dilinin leksik qatının zənginləşməsinə təsirinin araşdırılması hər kəs üçün əhəmiyyətli ola bilər. Bu məqalədən xarici dili tədris edən universitetlərin magistratura pilləsində ingilis dilinin qrammatikası və üslubiyyatı fənlərinin tədrisində istifadə edilə bilər.

Ədəbiyyat

1. Coupland, N. sociolinguistics and globalisation (thematic issue of Journal of sociolinguistics 7 (4) − 2003. − p.465-472.
2. Block, D. Globalization and the language teaching / D.Block, D.Cameron (eds). – Rouledge, − 2002. – p.196.
3. Cameron, D. globalization and the teaching of "communication skills" // david Block, deborah cameron globalization and the language teaching. – Rouledge, 2002. – p. 67-82.
4. Johnstone, B. Indexing the local // the Handbook of language and globalization (ed. by n. coupland). – Blackwell Publishing ltd. – 2010. – p.386-405.
5. Veysəlli, F.Y.. Qloballaşma və müasir dünyanın dil mənzərəsi // Xalq. − 2015, 16 iyul, № 152.
6. Алпатов, В.М. Глобализация и развитие языков // Антиглобализм: Сборник материалов. – Режим доступа: http://anti-glob.narod.ru/st/alpatov.htm
7. Нефедова, Л.А. Иноязычная лексика в современном немецком языке: Иноязычная лексика в контексте заимствования. – М., 2012. – 98 с.
8. Болдырев, Н.Н. Концепт и значение слова // Методологические проблемы когнитивной лингвистики: научное издание. – Воронеж, − 2001. – с. 24-45.
9. Кофанова, Г.П. Когнитивно-дискурсивный анализ концепта глобализации в немецком языке: На материале СМИ Германии: Автореф. дис. … канд. филол. наук. – Калининград, − 2006. – 26 с.
10. DUDEN online Wörterbuch. http://www.duden.de DWDS: Digitales Wörterbuch der deutschen Sprache: Das Wortauskunftssystem zur deutschen Sprache in Geschichte und Gegenwart. Mode of access: https://www.dwds.de Wortschatz Universität Leipzig: Korpus Deutsch. http://corpora. informatik.uni-leipzig.de

N.F.Mammadova

Linguio-Cognitive Characteristics of Compound Words with the Component "Globalization" in the Lexical Layer of the German Language

Summary

In this article, the author investigates the impact of the globalization process on the German language, paying special attention to the reflection of globalization in the lexical system of the German language. The author notes that the process of globalization affects all the aspects of human activity, not just individual ones. The author also takes into consideration the pragmatic and word-forming features of thematic groups. In the article the author emphasizes globalization as the internationalization of all areas of social life, as a new stage of the formation of the whole world based on the latest achivements of the information technology revolution.

Key words: *language, globalization, Anglo-Americanisms, language contacts, sociolinguistics communication, semantic transformations*

Н.Ф.Мамедова

Лингвокогнитивная характеристика сложных слов с «глобализационным» компонентом в лексическом слое немецкого языка

Резюме

В данной статье автором рассматривается влияние процесса глобализации на немецкий язык, при этом особое внимание уделяется отражению глобализации в лексической системе немецкого языка. Автором статьи подчеркивается, что процесс глобализации затрагивает не отдельные, а все стороны человеческой деятельности. Автор также рассматривает прагматическую и словообразовательную характеристики слов рассматриваемой тематической группы. В статье автор подчеркивает, что глобализация – это новый этап интернационализации всех сторон общественной жизни, становления целостного мира, основанного на новейших достижениях революции информационных технологий.

Ключевые слова: *глобализация, англо-американизмы; языковые контакты, языковые контакты, социолингвистика, семантические преобразования*

Rəyçi: filol.f.d., dos. C.M.Babayev

Redaksiyaya daxil olub: 12.04.2024